UOT 94

MÜQABİL MƏMMƏDOV
A.ABakıxanov adına Tarix və Etnologiya İnstitutunun əməkdaşı
muqu0109@mail.ru

UYĞURLARIN TARİXİNƏ BAXIŞ

DOI: https://doi.org/10.36719/2708-065X/107/16-21

Məqalədə qədim türk tayfalarından olan uyğurların dövlətçilik tarixindən, mədəniyyətindən, işğalından, zəngin tarixindən bəhs edilir. Göstərilir ki, zəngin tarixi inkişaf yolu keçmiş uyğurlar dərin dövlətçilik ənənələrinə malikdirlər. Onlar müxtəlif dövrlərdə müxtəlif xalqlarla savaşmış, qanlı döyüşlərdə iştirak etmiş, bəzən böyük dövlətlərin tərkibinə daxil olsalar da, tarixlərinin çox hissəsi müstəqil yaşamış, bölgədə baş verən proseslərdə fəal iştirak etmişlər.

Açar sözlər: Uyğurlar, kağızın kəşfi, Çin siyasəti, uyğur dövlətçiliyi, uyğur mədəniyyəti.

Giriş. Asiyanın qədim türk xalqlarından biri vaxtı ilə böyük bir coğrafiyaya hökmranlıq edən uyğurlardır. V əsrin II yarısında artıq uyğur tayfaları öz bəyliklərini yaratmışdılar. Əksər türk xalqları kimi uyğurlarında adına qədim Çin mənbələrində rast gəlinməkdədir. Bu qədim xalqın ilk izlərindən Çin mənbələrində Qaqoy, xitay, dinlin və ən əsası xueyxe adları formasında bəhs olunur. Çin mənbələrində müxtəlif ən geniş yayılmış uyğur etimoloji nümunəsindən biridə hoei-ho, vei-ho və s. kimi birləşmələrdir. Bu etimoloji birləşmənin mənasına aydınlıq gətirərkən - 974-cü ilə aid Çincə bir əsərdə "şahin sürətilə dolaşan və hücum edən" kimi qeyd olunub (2, s.82). Digər bir tərəfdən bəzi türkoloqlar uyğur adının uy yəni qohum əqraba və gur ifadələrinin birləşməsindən yarandığını deyirlər. Bəzi mənbələrdə isə uyğur kəlməsi təqib edən, izləyən kimi göstərilir.

Asiyanın bu qədim xalqı bəzi tarixçilərə görə e.ə. III əsrdə tarixin meydanına çıxmışdı. Quraqlıqdan dolayı Şərqi Türküstandan qalxaraq əvvəlcə şimala sonra cənuba doğru irəlləmişlər. VIII əsrə qədər Uyğurlar indiki Rusiya Federasiyası subyektlərindən olan Buryatiya Respublikası ərazinidə yaşamışlar. VIII əsrin ortalarına qədər olan dövrdə Uyğurlar erkən tayfaya bənzər yaşayış qurumları kimi uyğur bəyliyinin mövcudluğu altında Selenqa (bəzi mənbələrdə Sələng) çayı ətrafında Baykal gölünə qədər olan ərazilərdə yayılmışdılar. Hələ I Göytürk xaqanlığı dövründə uyğur bəyliyi Göytürk xaqanlığının asılılığında olmuş, 630-cü ildə xaqanlığın çöküşündən sonra müstəqilliyini bərpa etmişdir. Lakin müstəqilliyi uzun çəkməmişdir. Az sonra qurulan Şərqi Göytürk xaqanlığı Uyğur tayfalarının yaşadığı əraziləri də özünə tabe etmişdir. VIII əsrin 40 cı illərindən başlayaq Uyğurlar arasında Şərqi Türküstandan ayrılmaq və müstəqillik əhval ruhiyyəsi geniş yayılırdı. Bunun əsas faktorlarında biridə Çinin bu prosesləri dəstəkləməsi idi. Bəzi Çin və run mənbələrində Çinin uyğurlara ilk dəstək göstərdiyi tarix kimi 842-ci il qeyd olunur. VIII əsrin ortalarında Şərqi Türküstan dövlətinin zəifləməsi, Çinin bu bölgədəki boylara etdiyi yardımlar nəticəsində Uyğurlar oturaq həyatın prinsiplərini mənimsəyərək dövlətçilik idealarına sahibləndilər. Uyğur tayfalarının 10 dan çoxu haqqında məlumatlar tarixdə öz əksini tapır.

Qutluq Bilgə xaqanın hakimiyyəti dövrü Uyğurlar (744-746). 744-cü ildə (bəzi mənbələrdə isə 745-ci il olaraq qeyd olunur) bütün mövcudluğu dəyərləndirən Alp Qutluq Bilgə Xaqan (onun adı Çin mənbələrində Peylo kimi keçir) 10 uyğur və 9 Oğuz boyunu birləşdirərək özünü Xaqan elan etdi. Daha sonra qonşu xalq olan Karluklarla birləşərək Şərqi Göytürk xaqanlığının mövcudluğuna son qoydu. Uyğur dövlətinin qurucusu Alp Qutluğ Bilgə Xaqanla yanaşı ondan sonra hakimiyyətə gələn Mayançur Xaqana (bəzi mənbələrdə Bayancur və ya Moyən-Çor Xaqan) aid bugünkü Monqolustanın cənubunda Şine-Usu kəndi ətrafında qazıntılar nəticəsində əldə edilən böyük bir kitabədə Uyğur dövlətinin quruluşu, genişlənməsi, Alp Qutluğ Bilgə Xaqanın və Mayançur Xaqanın zəfərləri haqqında geniş məlumatlar verilmişdir (2, s.83).Qutluq Bilgə Xaqan qurduğu dövləti Göy Türk İmperatorluğunun maddi və mənəvi varisi olaraq elan etmiş və bundan sonra Orxon çayı sahilində öz paytaxt şəhərləri olan Ordubalıq şəhərini inşa etmişdir. Bu şəhərin adı Balasaqun olaraqda bəzi mənbələrdə keçir. Tarixçilərin fikirlərinə əsasən isə Balasaqun bu şəhərin qalıqları üzərinə qurulmuş başqa şəhərdir. Turfan şəhəri yaxınlığında Goaçang tarixi ərazisində Qutluq xaqanın dövründə olan uğurlardan genişliklə bəhs olunur.

Uyğur xaqanlığının inzibati ərazi və idarə prinsiplərinə nəzər yetirsək xaqanlıq feodal dövlət idi. Xaqanlıq ərazisində çoxlu tayfa və qəbilələr yaşayırdıki onlar mərkəzi hakimiyyətə tabe idi. Xaqanın

yanında qədim türklərə xas toy adlanan müşahidəçi orqan fəaliyyət göstərirdi. Toyda xaqanlıqda yaşayan tayfa və qəbilə nümayəndələri təmsil olunurdu. Paytaxt Ordu-Balıq şəhərindən əlavə Orxun çayı sahilindəki Xara Balıq,Selenqa çayı sahilindəki Bay Balıq kimi böyük şəhərlərdə mövcud idi. Həm dövlət idarəçiliyində həmdə təsərüfatda qul əməyindən istifadə geniş kifayət qədər məhdud idi.

Uyğur tayfaları arasında olan münasibət eramızın ilk əsrlərində tayfalararası müxtəlif münasibətlər zəmnində idisə artıq Xaqanlıq dövründən etibarən Uyğurların oturaq həyatla tanış olması ilə tayfalar arasında ərazi problemlərinində meydana çıxmasına şərait yaratdı. Maddi tapıntılara əsasən məlum olur ki, Qutluq xaqanın dövründə Uyğurlar təkcə Selenqa vadisində deyil, Mancuriyadan Altaya qədər cənubda isə Qobi səhrasına qədər olan geniş coğrafiyanı əhatə edirdi. 746-cı ilə qədər xaqanlıq Qutluq Bilgə xaqanın hakimiyyətində olmuşdu. Bu xaqanlıqdan öncə uyğurların bəyliyi mövcud olsada uyğur xalqının inkişafında və tarixi yüksəlişində uyğurların məhz bu xaqanlığı xüsusi əhəmiyyət daşıyır. Uyğur xaqanlığında idarəçilik irsi olduğuna görə hakimiyyət atadan oğula irsən ötürülürdü odur ki, 746-cı ildə xaqanlığın qurucusu Qutluq Bilgə Gül xaqanın vəfatından sonra hakimiyyətə onun oğlu gəlir.

Moyon Çurun hakimiyyəti dövründə Uyğurlar (746-759). Bəzi mənbələrdə Bayancur Çin mənbələrində Mayancjo kimi qeyd olunur. Bu xaqanın hakimiyyəti dönəmində Orxan çayı sahilində Ordu Balıq şəhər-düşərgəsinin yerində Balasaqun şəhərinin əsası qoyulur və paytaxt elan edilir. Moyan Çur hərtərəfli biliyə malik mahir dövlət xadimi idi. Qonşu tayfalarla etdiyi yüksəksəviyyəli danışlar onun yüksək diplomatik bacarığından xəbər verirdi. Məhz bütün bunların səbəb idi ki, Uyğur xaqanlığının ərazisi xeyli genişlənmiş, onlarla tayfalar Uyğurların asılılığına düşmüşdü. 750-751-ci illərdə Tuva ərazisinə ard arda səfərlər edən Mayan Çur bu ərazinidə Uyğur xaqanlığının ərazisi etmişdir (2, s.84).

Hələ 745-ci ildən Uyğurlar Çinə gedən ticarət yollarına nəzarət etməyə başlamışdılar. 746-759-cu illərdə Çində baş vermiş üsyanı Moyan Çur məharətlə qiymətləndirmiş və dərhal Çinə üsyanı yatırmaqla bağlı kömək göstərmişdi və bundan sonra Çin imperatoru qızını Moyan Çura ərə vermişdi. Bəzi Çin mənbələrində qeyd olunur ki, həmin Çinli xanımın adı Day Dzun olmuşdur. Amma bəzi mənbələr isə bunu inkar edir. Həmin mənbələrdə qeyd olurnur ki, Moyan Çurun xanımının adı tarixdə mövcud deyil və Day Dzun isə başqa bir Uyğur xaqanının qızıdır. Moyan Çurun hakimiyyətinin ümumi məzmununa nəzər yetirsək onu müsbət istiqamətli təqdin etmək olar. Ona görə ki, Moyan Çurun hakimiyyəti həm Uyğur xaqanlığında daxili sabitliyin möhkəmləndirilməsi həm də Çinin asılı vəziyyətə gətirilməsi isə xarakterik olmuşdur. Çin həmin dövrdə xaqanlıqla münasibətlərin biristiqamətli olması üçün əlindən gələni əsirgəmirdi.

İdiqin xaqanın hakimiyyəti dövründə Uyğurlar (760-779). İdiqin xaqanın hakimiyyəti dövründə xaqanın şəxsiyyətinə pərəstiş əsaslı şəkildə artmışdı. Hətta bəzi mənbələrdə xaqanın adı İdiqin olaraq yox məhz Tenqri (Qədim türklərdə tanrı) kimi bəhs olunur. İdiqin xaqanın hakimiyyəti dövründə xaqanın şərəfinə Balasaqun şəhərində xaqan sarayı inşa olunmuşdu. Bu dövrə qədər Uyğur xaqanları dəbdəbəli alacıqlarda qalırdılar. Xaqanın Uyğurlar içərisində nüfuzunun yüksəlməsi, hakimiyyətin xaqan və onun yaxınlarının ətrafında cəmlənməsi birmənalı olaraq Uyğurlardan aslı olan tayfalarda narazıçılıqların meydana çıxmasına dəlalət verirdi. 779-cu ildə Tun Moko Tarxan adlı tayfa başçısı İdiqin xaqanı və onun bütün ailəsini öldürərək hakimiyyəti ələ aldı.

Uyğurlar 779-842-ci illərdə. İdiqin xaqandan sonra Uyğur dövlətində hakimiyyətə Tun-Moko Tarxan gəldi. Lakin həmin ildə Tun-Moko Tarxan sui-qəst nəticəsində öldürüldü. Hakimiyyəti Dolos xaqan keçdi. Çin mənbələrində onun adı "Pan quan dələ" olaraq qeyd olunur. Məhz bu dövrdə Xaqanlıq tənəzzül dövrünü yaşayırdı. Artıq dövlətin daxili və xarici siyasətini Çin tənzimləyir və onun istəyi əsasında proseslər aparılırdı. Çinin Uyğurlar üzərində artan nüfuzundan əlavə xaqanlığı zəiflədən əsas səbəblərdən biri də Tibet yaylasında yeni yaranmış Tibet dövləti idi. Onilliklərlə Uyğurların tabeliyində yaşayan qelu, şato bayan kimi türk tayfaları artıq Tibet dövlətinə qoşuldular. Bütün bunlardan əlavə Tibet dövləti xaqanlığa düşmən mövqe bəsləyirdi. Tez tez Uyğur xaqanlığının qərb əyalətlərinə qarət talan məqsədi ilə hücumlar edirdi. Onun ərazisi Kaşqaydan Tyanşan dağlarının ətəklərinə qədər olan ərazini əhatə edirdi. Lakin Xaqanlığın qərbində olan təhlükə Tibet dövləti ilə kifayətlənmirdi. İrtış çayı sahilində yaşayan Karluk türkləri ilə olan münasibətdə ürəkaçan deyildi. Xaricdə olan təhlükələrdən savayı daxili mühitdə sabitlik yaratmaq sanki mümkünsüz idi. Xaqanlar ard arda hakimiyyətə gəlir az çəkmədn sui qəst nəticəsində öldürülürdü. Dolos xaqandan sonra hakimiyyəti əvəzləyən Aço xaqanda 895-ci ildə sui qəst nəticəsində öldürüdü. Hakimiyyət uğrunda uzun çəkişmələrdən sonra Qutluq Bilgə

xaqanın ailəsindən olan Kutluq xaqan əyanlar arasında olan hakimiyyət münasibətlərinə son qoyaraq hakimiyyəti öz əlində birləşdirə bildi. Çin mənbələrində Qudulu adı ilə qeyd olunan bu xaqan məhz həmin mənbələrə əsasən 796-cı ildə özünü xaqan elan etmişdi. 2 ildən çox müddət ərzində bir sıra daxili sabitlik qaydalarını tənzimləsə də əyanların və tayfa başçılarının hakimiyyətlə münasibətini tənzimləməkdə çətinlik çəkirdi. Odur ki, 798 bəzi mənbələrdə isə 799-cu ildə Kutluq xanı Doloye xaqan əvəzlədi. Çinlilər onu Çjun-Çjen xan adlandırırlar. Doloye xaqanın hakimiyyəti dövründə əyanların hərcmərcliyi geniş vüsət almış, Tibet dövlətinin və Karlukların qarətçi yürüşləri səngimək bilmirdi.

798-ci ildən Uyğurlar üçün əsas təhlükələrdən biri olan qırğızlar uyğurların tarixində yer almağa başladılar. Yenisey çayı sahillərində məskunlaşan bu tayfalar hərcəhtlə müstəqillik arzusunda idilər. Uyğurların Mərkəzi Aparatı tərəfindən qırğızlarla bağlı hərbi əməliyyatlar başladı lakin bu gözlənilən nəticəni vermədi. Əskinə xaqanlığın nüfuzuna böyük zərbə endirdi. Uyğur xaqanlığının mövcudluğunun son onillikləri qırğız tayfalarının qarşısını almaqdan ibarət idi. 820-ci ildən etibarət qırğız tayfaları Uyğurlarla fundamental və hərtərəfli mübarizəyə başladılar. 20 ilə yaxın müddət ərsində davam edən mübarizədən sonra Xaqanın yaxın əyanlarından biri olan Kurbabirin köməyi ilə uyğurların tabeliyində yaçayan şato türk tayfasının dəstəyi ilə xaqana sui-qəst qurdu. Bu cəhd uğurlu oldu və Uyğur xaqanı öldürüldü. Hakimiyyətə bir müddət Kurbabir daha sonra Ediz Uyğur tayfasından olan Külük adlı biri uyğurlara rəhbərlik etməyə və qırğızlara qarşı vahid cəbhə yaratmağa başladı.

840-841-ci ildə Böyük Çöldə güclü qar yağdı.Çin mənbələrində qeyd olundur ki, bu ərazilərin əhalisi maldarlıqla məşğul olduğundan çöllər ölü qoyun cəmdəkləri ilə dolu idi. Uyğurlar arasında geniş aclıq və qıtlıq yarandı. Bütün bunlardan sui istifadə edən qırğızlar Altay türkləri ilə müttəfiq münasibətləri qurdular. Az sonra isə müttəfiqlərin birləşmiş orduları Uyğurlar üzrərinə hərbi əməliyyatlara başladılar. Orduya Kuçluk Moko adlı qırğız sərkərdə rəhbərlik edirdi. Sayan dağından aşan ordu Uyğurların ərazisinə daxil oldu. Ajo ləqəbli Kuçluk Moko Uyğur xaqanına könüllü təslim üçün məktub göndərdi. Lakin Uyğur xaqanı bundan imtina edib, döyüşməyi üstün tutdu.

Bu döyüşlərdə uyğurlar məğlub oldu. Sonuncu Uyğur xaqanı Qut-törə mübarizəni davam etdirsə də, döyüşdə öldürüldükdən sonra 95 illik Uyğur xaqanlığının mövcudluğuna son qoyuldu. Paytaxt Balasaqun şəhəri qarət olunub dağıdıldı. Böyük Xaqanlıq dövründən sonra Uyğurlar qırğın ağalığına boyun əyməyən 28 tayfadan ibarət Uyğurlar 2 hissəyə ayrıldılar. 15 tayfadan ibarət Uyğurların bir hissəsi Pan Telenin rəhbərliyi ilə Altaya çəkildilər. İrtış çayı sahillərində yaşayan Karluklarla qaynayıb qarışaraq assimlasiya proseslərimə qoşuldular. Digər 13 tayfa isə cənuba Tibetə doğru hərəkət etdi. Uyğurların bu qrupuna rəhbərlik edən Uçe Dələ 860-cı ildə Çinin türklər yaşadığı bölgəni, yəni Çin Türküstanını tutaraq 2-ci Uyğur xaqanlığının əsasını qoydu. Bu xaqanlıq tarixdə Uyğur knyazlığı, Turfan knyazlığı ilədə qeyd olunur. 873-cu ildə qırğızlar bu knyazlığın mövcudluğuna son qoydu. Bu knyazlıqda yaşayan uyğurların bir hissəsi digər 15 uyğur tayfasının yanına köç etdi. Digər hissəsi isə orada yaşayaraq 911-ci ildə Çinin Qansu əyalətində yenidən uyğur dövlətini qurdular. Lakin güc potensiallarını itirdiklərinə görə bütün hərbi əməliyyatlar dayandırılmışdı. 940-cı ildə 3-cü Uyğur dövləti Çinin hakim sülaləsi Kitanların, 1028-ci ildə Tanqutların, 1226-cı ildə Çingiz xanın tabeçiliyinə keçsə də, yarıasılı dövlətçiliklərini qoruyub saxlamaqda idilər. 1368-ci ildə sonuncu Uyğur hökmdarı İduk Kutun Çinin Minq sülaləsinə təslim olmuşdur. Bununlara Uyğurların dövlətçilik və hakimiyyətlərinə son qoyulmuşdur (3, s.32).

Uyğur mədəniyyəti. Uyğur mədəniyyəti tarixdə özündən sonra gələn türk dövlətlərinə, habelə İslam mədəniyyətinə, Uzaq Qərb mədəniyyətinə köklü təsir edə biləcək qədimdən qədim tarixi nüanslarla zəngin olmuşdur. Bu xalqın özünəməxsus ədəbiyyat, tərcümə qaydaları, toxuculuq, xalçaçılıq, çiniçilik, zərgərlik, rəsm, heykəl, şəhərsalma, ticarət, əkinçilik, musiqi, teatr sahələrində yüksək mədəniyyət nümunələri yaratmışlar (8, s.36).Uyğur xaqanlığının mövcudluğu dövründə xüsusilə 779-795-ci ildə xaqanların iqtisadiyyatı və əhalinin rifahını yüksəltmək məqsədi ilə apardığı islahatların sayəsində Uyğur mədəniyyəti çiçəklənmə dövrünü yaşamışdı. Başqa qonşu mədəniyyətlər olmaqla bir sıra geosiyasi platformalara mədəni təsir edə bilmişdir. Ərəblərə və ərəblər vasitəsi ilə bir çox mədəniyyətə kağız istesalı, mətbəə qurmaq, kağızın üzərində miniatürlə işləmək bacarığı və s. kimi mədəni inkişaflara təkan vermişdir. Uyğur mədəniyyətinə nüfuzlu təsir edən mədəniyyətlərdən biri heç şübhəsiz Çin mədəniyyəti olmuşdur (7, s.487). Balasaqun şəhərinin yaxınlıqlarında aparılan arxeoloji qazıntılar nəticəsində üzərinə Çin heroqlifləri həkk olunmuş daş lövhələr aşkar edilmişdir. Lakin Çin mədəniyyətinin əsaslı təsirinə baxmayaraq qədim Uyğurlar kifayət qədər zəngin, üstün özmədəniyyətə sahib idi.

Memarlıq və şəhərsalma. Uyğurlar heykəltaraşlıq sənətinin qədim köklərinə bələd olmuşdular. Turfan şəhəri yaxınlığında aparılan arxeoloji qazıntılar nəticəsində Uyğur türklərinə məxsus bir çox heykəltaraşlıq əsərləri o cümlədən qala və məbəd divarları, daş kitabələr, üzərinə müxtəlif rəngli boyalar çəkilmiş maddi əsərlər aşkar edilmişdir. Turfan qazıntıları zamanı Uyğurlara məxsus 10 metr hündürlüyündə daşdan hazırlanmış budda aşkar edilmişdir. Bundan əlavə uyğurlara məxsus o dövrə aid onlarla heykəlciklərdə günümüzə çatmışdır. Qarabalasaqun, Beşbalıq, Qaraxoca, Qaraşar, Qaraxotan, Yarkənd, Turfan, Kaşğar, Kamal, Qulça, Urumçu, Suço, Kanço, Çərçən, Ağsu və s. kimi şəhərlər salınmışdır ki, adı çəkilən bütün şəhərlərdə Uyğur mədəniyyətini özündə əks etdirən məbədlər, saraylar və digər tikililər inşa olunmuşdu. VIII əsrin sonlarında Uyğur Xaqanlığı şəhərsalmada və heykəltaraşlıqda Çindən heç də geri qalmırdı. Xüsusilə Tarım bölgəsində tapılan Maddi mədəniyyət nümunələri bunun əyani sübutudur.

Uyğur dili. Uyğur mədəniyyətindən danışarkən onların bir çox mədəniyyətlərə köklü təsir göstərdiyini dəfələrlə vurğuladıq. Bu qövmlərdən biridə şübhəsiz Çingiz xanın imperiyası idi. Uyğur türkləri bu imperiyanın mədəniyyətində öz sözünü demiş etnos idilər. Çingizoğulları uzunillər ölkələrində uyğur dili rəsmi dil elan etmişdir. İmperiyanın daxili siyasətində uyğur dili nə dərəcədə geniş vüsət almışdısa, xarici siyasətdə məhz Uyğur dilinin üzərində qurulmuşdu. Diplomatların əlsəriyyəti Uyğur türkləri olurdu və diplomatik dil də elə uyğur dili idi. Şübhəsiz ki, imperiyanın xarici dövlətlərdə olan elçiləri məhz Uyğur türklərindən idi. Elə bu səbəbdən idi ki, Çingiz imperiyası Uyğurların sayəsində Türk-Moğol imperiyasına çevrilmişdir. Tarixdə qeyd olunur ki, bu dövlətin rəsmi dili Xaqaniyyə türkcəsi olmuşdur və buda Uyğur türkcəsi idi. Uyğur türcəsinin rəsmi dil olmasından savayı həmçinin az əvvəl qeyd olunduğu diplomatik münasibətlərdə uyğur türklərindən yan ötmürdü. Çingiz imperiyanıın Romadakı elçisinin, Bağdad və Çin valisinin uyğur türkü olduğunu göstərmək olar. Bundan əlavə Uyğur türkləri Təbrizdə Elxani sarayında, bir necə dövlətin ordularında, tərbiyəçi müəllim kimi Çingiz ailələrinin içərisində geniş nüfuza malik edilər.

Həqiqətdir ki, Qaraxanlı türklərinə məxsus Qudatku-Bilik, Atabətül-Həqatid, Divanü lüğət-it-Türk kimi əvəzolunmaz əsərlər məhz Uyğur türkcəsində, Uyğur dilində qələmə alınmışdır. Uyğur dili xüsusilə Elxanlıların zamanında geniş yayılmağa başlamışdı. Qızıl Orda dövlətinin mövcud olduğu vaxtlar Uyğur dili Rusiyanın ucqarlarınadək həmçinin Şərqi Avropanın geniş ərazilərinə yayılmışdır.

Uyğur dilinin bu dərəcədə geniş sərhədlərdə yayılması onu diplomatik dil formasını gətirirdi. 1027-ci ildən başlayaraq Uyğur və Kitay xanları tərəfindən Sultan Mahmud Qəznəliyə çoxlu məktublar göndərilmişdir ki, həmin məktublar günümüşə qədər gəlib çatmışdır və bu məktublar uyğur dilində qələmə alınıb. Mahmud Kaşğari bildirir ki, Yuxarı Çinə qədər mövcud bütün türk xanlıqlarında və sultanlıqlarında yayılmış din Uyğur dilidir (7, s.477). Uyğur dilinin bu dərəcədə geniş vüsət alması onun ticarətin inkişafınada kömək etdiyinin göstəricisidir. Hətta tədqiqatçının qeyd etdiyi kimi Uyğur dili geniş sərhədləri aşmışdır ki, Çinin bir sıra şəhərlərində belə əhalinin bir hissəsi Uyğur dilində danışa bilirdi. Xarəzmşahların dövründə də uyğurlarla o cümlədən bir sıra türk etnosları ilə aparılan danışqlar uyğur türkcəsində olmuşdur. Uyğur dilinin inkişafını səviyyələndirərkən bir onu 3 dövrə bölə bilərik. Hansı ki, I dövr eramızdan əvvəl başlamış 750-ci ilə qədər davam etmişdir. II mərhələ 750-1300-cü illəri əhatə edir. Bu dövr Uyğur dilinin inkişafında müstəsna əhəmiyyət kəsb edir. Həmçinin həmin dövrə aid Uyğur dilinin zənginliklərini özündə ehtiva edən yüzlərlə maddi məhəniyyət nümunəsi tapılmışdır. III mərhələ isə 1300 cü ildən sonrakı dövrü əhatə edir. Bu dövrdə Uyğur dili Avropada gizli danışıq dili kimi istifadə olunubmuş. Amma ümumi olaraq bu mərhələdə dil digər faktorlar və ünsürlər tərəfindən sıxışdırlmışdır.

Uyğurların dini. Uyğur Türkləri Göy Tanrı, Şamanizm, Buddizm, Manixeizm və İslam dininə itaət etmişlər. Uyğurlar qədim türklər kimi özlərini Göy tanrısının nəslindən hesab edirdilər. Odur ki, onların dinlərində və dini fikirlərində bu xüsusi mövqe tutmuşdur. Qədim Uyğurlara məxsus Törəyiş dastanı, Köç dastanı kimi əsərlərdə Uyğurların bu dini idealarından geniş spektri ilə bəhs olunur. Uyğurların ən aparıcı dinlərindən biri Maniçilik olmuşdur belə ki, mani idealları Uyğur tayfaları arasında geniş vüsət almağa başlamışdır. Lakin Uyğurlar və maniçilik arasında olan ən parlaq səhifə Uyğur xaqanı Buğa xaqanın 762-ci ildə Çinin Lo-Yanq bölgəsinə səfəri olmuşdur. Bu səfərdən qayıdan xaqan özü ilə bir çox Mani rahiblərini Uyğur xaqanlığına gətirmişdir. Daha sonra Bügü xaqan Uyğur xaqanlığında maniçiliyi rəsmi dövlət dini kimi elan etmişdir. Günümüzə Uyğur türkcəsində qələmə alınan

Maniçiliyin ən əsas əsərlərindən hesab edilən Nom adlı qanunlar toplusu gəlib çatmışdır. Ümumiyyətlə Maniçiliyin Uyğur xaqanlığında yayılması ilə bu dinin tarixində 500 illik tənəzzül yenidən inkişaf yoluna başlamışdı. Mani dini geniş coğrafiyanı əhatə edirdi,və bu gündə biz həmin dinin prinsiplərini müxtəlif kitablardan öyrənirik. Uyğurlar arasında ən geniş yayılmış Mani ədəbiyyatları İlahi himnlər, günah çıxarma Duaları və İrk Bitiq adlı fal kitabı olmuşdur Uyğurlara aid ədəbi əsərlərlə yanaşı Koço şəhəri xarabalıqlarından qazıntılar nəticəsində ağ geyimli rahiblərlə əhatə olunmuş Mani peyğəmbərin təsviri, insan rəsmləri, heykəlçiklər, divarları çiçək və güllərlə bəzədilmiş rəsm əsərləri əldə edilmişdir.

Maniçilikdən əlavə Uyğurlar uzun müddət Şamanizm dininə etiqad etmişdilər. Hətta bəzi tayfalar arasında məhdud formada xristian düşüncəsinə yayılmışdır. Ərəblərin Ərəbistan yarmadasından çıxaraq dünyaya yayılmasından sonra ərəb mədəniyyəti, o cümlədən İslam dini bir sıra xalqların taleyinə təsir etdi.Bunlardan biridə Uyğur türkləri oldu. Hal hazırda Uyğur türklərinin böyek hissəsi İslam dininə etiqad edir. Məşhur tarixçi Güveyni XIII əsrdə Uyğurların qədim və yeni vətənləri olan Monqolustan və Şərqi Türküstanı gəzmiş, onların əsərlərindən tarixləri haqqında bilgilər toplamış, Buddizm, Manilik, Xristianlıq və İslam dinlərinin onlar arasında yayıldığından, Orkun bölgəsindən Beşbalığa köç etdiklərindən təfsilatı ilə bəhs etmiş və Uyğurların dini ilə bağli fundamental tədqiqatlar aparmışdır.

Uyğur türklərinin tərcümələri. Uyğur türcləri bir sıra dövlətlərin o cümlədən Çingiz imperiyasının diplomatiyasında nüfuzlu mövqe tutmuşdular. Buna Uyğur türklərinin yüksək dil biliyə malik olduğundan xəbər verər faktlardan biridir. Uyğur türkərinin əməyi sayəsində bir sıra əsərlər Uyğur dilinə tərcümə olunub. Buna misal olaraq ən başlıca nümunə kimi, Buddizmə aid fundamental əsərlərin sanskritcədən uyğur türkcəsinə tərcüməni göstərə bilərik.Buddizm həmin dövrdə bir sıra dinlər tərəfindən sıxışdırıldığı səbəbindən onun maddi irsidə məhv olunurdu. Odur ki, günümüzə buddizmə aid yadigar qalan əsərlərin, kitabların, fikirlərin böyük hissəsi məhz vaxtı ilə uyğurlar tərəfindən tərcümə edilmiş və günümüzə miras buraxılan əsərlərdir. Bundan əlavə, Uyğurlar İncilin uyğur türkcəsinə tərcüməsini də gerçəkləşdirmişdilər ki, bu gün İncilin ən həqiqətə bənzər və rellalığı özündə daha qabaqrıq əks etdirən variantı məhz Uyğur dilinə tərcümə olunmuşudur. Bundan əlavə, Uyğurlar qədim Hind mədəniyyətinin nümunəsi Mahabharatanı, Ellada mədəniyyətinin incilərindən olan Aesopus-Yosipas əsərini, onüstün idilər. Əcəba, o zamankı neçə Avropalı qala bəyi uyğun hüquqi ifadələrlə bir müqavilə tərtib edə bilərdi? Halbuki Uyğurlarda hər bir kəndli və əkinçi belə buna qadir idi. Uyğurlarda hüquqi formullar və qanunlar yüksək səviyyədə gəlişmişdi. Müxtəlif dinlərə mənsublarla yuvan və siryani əsərini öz dillərinə tərcümə etmişdilər.

Uyğur əlifbası. Uyğur əlifbası vaxtı ilə yüzminlərlə insan tərəfindən istifadə olunmuşdur. Erkən feodalizm əsrlərində Uyğurların və Uyğurlara qonşu olan xalqların yaşadığı ərazilərdən tapılan mədəniyyət nümunələrində uyğur əlifbasına rast gəlinir. Uyğurlar V əsrə qədər olan dövrdə mani adlı əlifbadan istifadə etmişlər, 5-8-ci əsrlərdə qədim türk dilindən, 8-ci əsrdən sonra isə uyğur türcəsindən istifadə etmişdilər və qədim uyğur əlifbası Soğdi yazısı əsasında hazırlanmışdır. Çin mənbələrinə görə, o, 28 hərfdən ibarət olmuşdur. Uyğurların islamı qəbul etməsindən sonra bu əlifba arxa plana keçsə də, 1930-cu illərə qədər SSRİ-də, bu günə qədər Çində istifadə edilməkdədir. Məşhur tədqiqatçı Von Le Coq yazır ki: "O zamankı Avropa ilə müqayisədə Uyğurlar çox olan Uyğurlar arasında cəzaların mötədil növlərindən istifadə edilmişdi" (8, s.205).

Uyğurlar və kağızın kəşfi. Uyğurlarda arxiv üçün işlədilən yazı materialı əsas etibarilə kağız olmuşdur. Uyğurlar Avropadan əsrlər öncə kağız işlətmiş, 751-ci ildə "Atlah savaşı"nda ərəblər ələ keçən sənətkar Uyğur əsirlərdən istifadə edərək Səmərqənddə bir kağız emalatxanası qurmuş, Uyğurlardan öyrəndikləri kağız istehsalını öncə Sicilya və İspaniyaya aparmış, oradan da daha sonralar, XI əsrdə Xristian Avropaya yayılmışdı. Şərq və Qərb mədəni ünsürlərini birlikdə yaşadan, mədəniyyətlərin yayılışında vasitəçilik edən Uyğur Türkləri vasitəsilə mətbəə və kitab basma çapı da Ərəblərə, Ərəblər vasitəsilə də Avropaya yayılmış, Qutenberq və Coster onu gəlişdirmişdilər. Bunu nəzərə alan tədqiqatçılar göstərirlər ki: "Blok şəklində çapın Qərbə yayılmasında Uyğurların böyük rolu olmuş, ən qədim mütəhərrik tipdə hərflər Türkcə üçün işlədilmişdir".

Nəticə. Asiyanın inciləri Niya və Kuruk çayları tez-tez daşdığından Uyğur mədəniyyətinin öyrənilməsi bu gün bir sıra çətinliklər yaratmaqdadır. Lakin buna baxmayaraq aparılan arxeoloji qazıntılar nəticəsində Uyğur türklərinə məxsus mədəniyyət nümunələri bu gün dünyanın aparıcı muzeylərində sərgilənməkdədir. Uyğur Türkləri Çin hüququnu, Hindistan Buddizmini, Soğd və Toxar Ellinizmini,

Aralıq dənizi hövzəsi Nesturi Xristianlığını və Manixeizmi bir-biri ilə qovuşduraraq dünyaya tayı bənzəri olmayan mədəniyyət sərgilənməkdədir. Bu gün sayları 28 milyonu ötən Uyğur Türkləri Çin Xalq Respublikasında Muxtar statuslu ərazidə yaşamaqdadır. Uyğur türklərinin ən çox yaşadığı ölkələr sırasında Çin Xalq Respublikasını 800 min Uyğur ilə Səudiyyə Ərəbistanı əvəzləyir. Bundan əlavə Monqolustanda, ABŞ-da və xüsusilə Türkiyədə sayları kifayət qədərdir.

ƏDƏBİYYAT

1. Əlisa Şükürlü. Qədim türk yazılı abidələrinin dili. Bakı, Maarif, 1993, 336 s.
2. Muxtarova Ə. Türk xalqlarının dövlətçilik tarixi (qədim dövt və orta əsrlər). Bakı, Adiloğlu, 2002, 136 s.
3. Kemal Anadol. Orta Asya türk devletleri tarihi. İstanbul, KAMER, 1996, 464 s.
4. Guignes Joseph de. Histoire Generale Des Huns, Des Turcs, Des Mogols Et Des Autres Tartares Occidentaux. Vol.1-4, Paris, Desaint et Saillant, 1756-1758, 643 p.
5. Yusif Yusifov. Çini yazılı kaynaklarda eski türklerin izleri. Ankara / XI. Türk Tarih Kongresi (5-9 Eylül 1990-Ankara). Ankara, TTK Yayınları, 1990, s.95-112.
6. Садвакасов Годжахмад. Алфавит литературного языка советских уйгуров // Вопросы совершенствования алфавитов тюркских языков СССР. Москва, Наука, 1972, 239 с.
7. Yusif Yusifov. Qədim Şərq tarixi. Bakı, Şərq-Qərb, 2007, 536 s.
8. Sevda Süleymanova. Türk xalqları tarixi (ən qədim zamanlardan bu günümüzədək). Bakı, Elm və Təhsil, 2011, 352 s.
9. Nizami Cəfərov Türk xalqları ədəbiyyatı. Cild 1. Bakı, Azərbaycan Atatürk Mərkəzi, 2006, 318 s.

МУГАБИЛ МАМЕДОВ
Сотрудник Института истории и этнологии имени А.А.Бакиханова

ВЗГЛЯД НА ИСТОРИЮ УЙГУРОВ

В данной статье рассказывается о государственности, культуре, роде занятий и богатой истории уйгуров – одного из древних тюркских племен.в статье показано, что уйгуры прошли богатое историческое развитие и имеют глубокие традиции государственности.они воевали с разными народами в разные эпохи, участвовали с ними в кровопролитных войнах, большую часть истории этого стремящегося к независимости народа жили самостоятельно, иногда принимали участие в составе больших государств и принимали активное участие в процессах, происходящих в мире и в регионе.

Ключевые слова: уйгуры, открытие бумаги, китайская политика, уйгурская государственность, уйгурская культура.

MUGABIL MAMMADOV
Employee of the A.A.Bakikhanov Institute of History and Ethnology

REVIEW OF UYGHUR HISTORY

In this article, it is clearly shown that the Uyghurs, the ancient people of Asia and the world, have ruled large territories over time.Over time, the Uyghurs, like other peoples, have been affected by various processes. Mainly, it should be noted that this nation, which had great traditions of statehood, has lost its statehood today.but regardless of all this, examples of the rich Uighur culture have survived.The material culture samples found once again indicate the antiquity and rich culture of the Uighurs.

Keywords: Uyghurs, the discovery of paper, Chinese politics, Uyghur statehood, Uyghur culture

Məqalənin redaksiyaya daxil olduğu tarix: 25 sentyabr 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 noyabr 2024-cü il.
Rəyçilər: t.ü.f.d. Xatirə Ağayeva, t.e.d. İsmayıl Məmmədov.